Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi



# İXRAC İCMALI

Dekabr 2021

www.ereforms.gov.az
info@ereforms.org

**Bizim energetikaya aid olmayan sənayemiz 20 faiz artdı.**

Biz əsasən Türkiyəyə, Rusiyaya və bəzi digər ölkələrə ixrac edirik. Deyərdim ki, bu il o baxımdan çox əlamətdar oldu. Qeyri-enerji layihələrinin ixracı 45 faiz artdı. Bu, həqiqətən də əlamətdar nəticədir. Yenə də ixracın həcmində qeyri-neft seqmentinin nisbəti aşağıdır.



Lakin hesab edirəm ki, bu seqment artacaq, xüsusilə azad edilmiş ərazilərdə yeni imkanları və kənd təsərrüfatının, turizmin, bərpa olunan enerjinin və sənayenin nəhəng potensialını nəzərə alsaq. Beləliklə, biz gələcəkdə neft və qazdan asılılığı azaltmağı planlaşdırırıq. Lakin eyni zamanda, biz başa düşməliyik ki, gələcək bir neçə onilliklər ərzində neft və qaz bizim iqtisadiyyatımızda vacib rol oynayacaq.

Azərbaycan Respublikasının Prezidenti
İlham Əliyevin Brüsseldə İtaliyanın “İl Sole 24 Ore” qəzetinə müsahibəsi
18.12.2021

# MÜNDƏRİCAT


Qeyri-neft sektoru üzrə ixraca dair məlumat — səh. 4

Qeyri-neft sektoru üzrə əsas ixracatçı subyektlərin reytinqi — səh. 13

"Azərkosmos"a aid xidmət ixracı haqqında məlumat — səh. 16

Qeyri-rezidentlər tərəfindən aparılan bank əməliyyatları haqqında məlumat — səh. 18

Azexport.az portalına daxil olan sifarişlər haqqında məlumat — səh. 20

"Bir Pəncərə" İxraca Dəstək Mərkəzindən qeyri-neft ixracı haqqında məlumat — səh. 23

1

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ İXRACA DAİR MƏLUMAT



## 2021-ci ilin yanvar-noyabr ayları ərzində 19,8 milyard ABŞ dolları dəyərində mal ixrac olunmuşdur

## 2021-ci ilin yanvar-noyabr aylarında qeyri-neft sektoru üzrə ixrac 2,4 milyard ABŞ dolları təşkil etmişdir

2021-ci ilin 11 ayı ərzində Azərbaycanın ixracı **19,8 milyard ABŞ dolları** olub. Qeyri-neft sektoru üzrə **2,4 milyard ABŞ dolları** dəyərində ixrac reallaşdırılıb. Qeyri-neft sektoru üzrə ixrac 2020-ci ilin müvafiq dövrü ilə müqayisədə **720,8 milyon ABŞ dolları** və ya **44 faiz** artıb. 2021-ci ilin 11 ayı ərzində meyvə-tərəvəz məhsulları ötən ilin eyni dövrü ilə müqayisədə 258,8 min ABŞ dolları artaraq 549,8 milyon ABŞ dolları təşkil edib. Müvafiq dövr ərzində qeyri-neft ixracında pambıq iplik 3,4 dəfə, kimya sənayesi məhsulları 2,7 dəfə, qara metallar və onlardan hazırlanan məmulatlar 2,3 dəfə, pambıq lifi 70,2%, alüminium və ondan hazırlanan məmulatlar 69,3%, şəkərdə isə 29,8% artım qeydə alınıb.

Normallaşma prosesinin davam etdiyi dövrdə noyabr ayı üzrə xarici ticarət həcmi **2,95 milyard ABŞ dolları** təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım **58,7%** təşkil etməklə **307,2 milyon ABŞ dolları** olub.

2021-ci ilin noyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac 1,6% artaraq 98,9 milyon ABŞ dolları, qeyri-yeyinti məhsulları üzrə isə 2,2 dəfə artaraq 208,3 milyon ABŞ dolları təşkil edib.

2021-ci ilin yanvar-noyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında pambıq mahlıcı (187,7 milyon ABŞ dolları) birinci olub. Bu siyahıda qızıl (184,7 milyon ABŞ dolları) ikinci, pomidor (tomat) (140,6 milyon ABŞ dolları) isə üçüncü yerdə qərarlaşıb.

2021-ci ilin yanvar-noyabr ayları ərzində Rusiya Federasiyasına 763,8 milyon ABŞ dolları, Türkiyəyə 586,1 milyon ABŞ dolları, İsveçrə Konfederasiyasına 204,5 milyon ABŞ dolları, Gürcüstana 143,4 milyon ABŞ dolları və Braziliyaya 70,9 milyon ABŞ dolları dəyərində qeyri-neft sektoruna aid mal ixrac olunub.

2021-ci ilin noyabr ayında qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası (98,4 milyon ABŞ dolları) birinciliyə yüksəlib. Bu siyahıda Türkiyə ikinci (77,7 milyon ABŞ dolları) və Braziliya üçüncü (23,1 milyon ABŞ dolları) olub.

2021-ci ilin noyabr ayı ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında xurma (37 milyon ABŞ dolları) birinci, pambıq mahlıcı (27 milyon ABŞ dolları) ikinci və karbamid (23,6 milyon ABŞ dolları) üçüncü olub.



# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN NOYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN NOYABR AYI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2019-cu və 2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr



# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARI ƏRZİNDƏ QEYRİ-NEFT İXRACI
(2019-cu və 2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)



# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARI ÜZRƏ YEYİNTİ MƏHSULLARI İXRACI
## (2019-cu və 2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr






# 2021-Cİ İLİN NOYABR AYI ÜZRƏ YEYİNTİ MƏHSULLARI İXRACI
## (2019-cu və 2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021
İXRAC İCMALI
dekabr






# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARI ÜZRƏ AQRAR VƏ AQRAR-SƏNAYE MƏHSULLARI İXRACI

(2019-cu və 2020-ci ilin eyni dövrü ilə müqayisədə, ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr






# FAO-nun ƏRZAQ QİYMƏTLƏRİ İNDEKSİ



# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr



# 2021-Cİ İLİN NOYABR AYINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ 5 ƏSAS İXRAC ÖLKƏSİ

(2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

İXRAC İCMALI






Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI

## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)





# 2021-Cİ İLİN NOYABR AYINDA İXRAC OLUNAN ƏSAS QEYRİ-NEFT MALLARININ SİYAHISI
## (2020-ci ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr

| | 2021 | 2020 |
|---|---|---|
| Xurma | 37 | 29,5 |
| Pambıq mahlıcı | 27 | 16 |
| Karbamid | 23,6 | 0 |
| Meşə fındığı | 19,5 | 16,4 |
| Qızıl | 18,6 | 24,5 |
| Metanol (metil spirti) | 15,9 | 3,8 |
| Tomat (pomidor) | 10,9 | 17,4 |
| Elektrik enerjisi | 10,8 | 0 |
| Xüsusi kütləsi 0,94-dən çox olan ilkin formalı polietilen | 10,2 | 0,2 |

# 2

# QEYRİ-NEFT SEKTORU ÜZRƏ ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

2021-ci ilin yanvar-noyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: “MKT İstehsalat Kommersiya” MMC, “Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti”nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, “Local Garden” MMC, “Baku Steel Company” MMC, “Sun Food” MMC, “P-Aqro” MMC, Hidayətov Təyyar Hidayət oğlu, “Azərbaycan Şəkər İstehsalat Birliyi” MMC, “RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD” MMC, “Çinar Aqro” MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin “Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi” başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər təmsil olunurlar: “Socar Polymer” MMC, “Azəralüminium” MMC, “Azergold” QSC, “Azərpambıq Aqrar Sənaye Kompleksi” MMC, “Azərenerji” ATSC, “Azərbaycan Hava Yolları” QSC, “Azəripək” MMC, “Azərbaycan Dəmir Yolları” QSC, “İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi” PHŞ.

Bu ixracatçıların reytinqi ilə bağlı məlumatla təqdim olunan infoqrafikalardan tanış ola bilərsiniz.

# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ QEYRİ-DÖVLƏT İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr



# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA QEYRİ-NEFT SEKTORU ÜZRƏ DÖVLƏTƏ MƏXSUS ƏSAS İXRACATÇI SUBYEKTLƏRİN REYTİNQİ

(ötən ilin eyni dövrü ilə müqayisədə, milyon ABŞ dolları ilə)

2021 İXRAC İCMALI dekabr



3

# “AZƏRKOSMOS”A AİD XİDMƏT İXRACI HAQQINDA MƏLUMAT

## 2021-ci ilin yanvar-noyabr aylarında “Azərkosmos” ASC 42,3 milyon ABŞ dollari dəyərində xidmət ixrac etmişdir

Yeni nəsil xidmət ixracı hesab edilən peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri sahəsi xidmət ixracının şaxələnməsi istiqamətində mühüm rola malikdir.

2021-ci ilin yanvar-noyabr aylarında “Azərkosmos” ASC tərəfindən dünyanın **41 ölkəsinə 42,3 milyon ABŞ dolları** dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac edilib. “Azərkosmos” ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 91 faizini təşkil edib.

2021-ci ilin noyabr ayında isə “Azərkosmos” ASC dünyanın **31 ölkəsinə 3,3 milyon ABŞ dolları** dəyərində xidmət ixrac edib.

2021-ci ilin yanvar-noyabr ayları ərzində peyk telekommunikasiya və optik peyk xidmətlərinin ixracının ilk beşliyində isə 10,4 milyon ABŞ dolları ilə ABŞ, 10 milyon ABŞ dolları ilə Fransa, 8,2 milyon ABŞ dolları ilə Birləşmiş Krallıq, 6,9 milyon ABŞ dolları ilə Malayziya və 1,7 milyon ABŞ dolları ilə BƏƏ qərarlaşıb.

# 2021-Cİ İLİN YANVAR-NOYABR AYLARINDA "AZƏRKOSMOS" ASC 42,3 MİLYON ABŞ DOLLARI DƏYƏRİNDƏ XİDMƏT İXRAC ETMİŞDİR

2021 İXRAC İCMALI dekabr



## Xidmət ixrac etdiyi 5 əsas ölkə

| Ölkə | Dəyər |
|---|---|
| ABŞ | 10,4 mln $ |
| Fransa | 10 mln $ |
| Birləşmiş Krallıq | 8,2 mln $ |
| Malayziya | 6,9 mln $ |
| BƏƏ | 1,7 mln $ |

yanvar-noyabr

| 2020 | 2021 |
|---|---|
| 41,3 mln $ | 42,3 mln $ |

+2,4%

4

# QEYRİ-REZİDENTLƏR TƏRƏFİNDƏN APARILAN BANK ƏMƏLİYYATLARI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin yanvar-noyabr ayları ərzində Azərbaycana gələn xaricilər bank kartları vasitəsi ilə 1,1 milyard manatlıq əməliyyat aparmışlar

Koronovirus (COVID-19) pandemiyası ilə bağlı yaranmış vəziyyət digər ölkələrdə olduğu kimi, Azərbaycanın da turizm sektoruna təsirsiz ötüşməyib.

2021-ci ilin noyabr ayında xarici vətəndaşların bank kartları vasitəsi ilə ölkəmizdə apardıqları əməliyyatların həcmi **151,1 milyon manat** təşkil edib. 2021-ci ilin yanvar-noyabr aylarında isə əcnəbilər bank kartları vasitəsi ilə **1,1 milyard manatlıq** əməliyyat aparıblar.

Bu barədə daha ətraflı məlumat təqdim olunan infoqrafikada verilmişdir.

# AZƏRBAYCANA GƏLƏN XARİCİ VƏTƏNDAŞLARIN BANK KARTLARI VASİTƏSİ İLƏ APARDIQLARI ƏMƏLİYYATLAR (milyon manatla)

2021 İXRAC İCMALI dekabr

| | 2019 | 2020 | 2021* |
|---|---|---|---|
| Yanvar | 88,3 | 85,2 | 72,2 |
| Fevral | 85,3 | 72,9 | 112,2 |
| Mart | 98 | 53,9 | 93,2 |
| Aprel | 103,2 | 19,7 | 64 |
| May | 100,9 | 24,3 | 81,3 |
| İyun | 115,1 | 23,7 | 90 |
| İyul | 134,6 | 23 | 95,1 |
| Avqust | 137,4 | 25,6 | 104,2 |
| Sentyabr | 106,2 | 25,9 | 124,3 |
| Oktyabr | 104,7 | 24,9 | 124,4 |
| Noyabr | 90,3 | 23,2 | 151,1 |
| Dekabr | | | |
| | 1,2 mlrd | 402,3 mln | 1,1 mlrd |

* Mərkəzi Bankın 2021-ci il üçün yenilənmiş statistikası əsasında

5

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN SİFARİŞLƏR HAQQINDA MƏLUMAT

## Portala daxil olan ixrac sifarişlərinin ümumi dəyəri 2 milyard 66 milyon ABŞ dolları təşkil etmişdir

2021-ci ilin noyabr ayında isə portala daxil olan ixrac sifarişlərinin dəyəri **36,6 milyon ABŞ dolları** təşkil edib.

2021-ci ilin yanvar-noyabr aylarında Azexport.az portalına **435,3 milyon ABŞ dolları** dəyərində ixrac sifarişləri daxil olub. 2021-ci ilin noyabr ayında Azexport.az portalına ən çox ixrac sifarişi pambıq yağı, tibbi zəli, tənzif, nar şirəsi, tütün, fındıq ləpəsi, xurma, mühərrik yağı, meyvə şirəsi və s. mallara daxil olmuşdur.

Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 30 noyabr tarixinə kimi (59 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri **2 milyard 659 milyon ABŞ dolları** təşkil edib.

# AZEXPORT.AZ PORTALINA DAXİL OLAN İXRAC SİFARİŞLƏRİNİN MƏBLƏĞİ

(milyon ABŞ dolları ilə)











# 2021-Cİ İLİN NOYABR AYINDA AZEXPORT.AZ PORTALINDAN İXRAC SİFARİŞİ ALAN ƏSAS MALLAR



6

# “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİNDƏN QEYRİ-NEFT İXRACI HAQQINDA MƏLUMAT



## 2021-ci ilin dekabr ayında “Bir Pəncərə” İxraca Dəstək Mərkəzindən 20,4 milyon ABŞ dolları dəyərində qeyri-neft ixracı həyata keçirilmişdir

“Bir Pəncərə” İxraca Dəstək Mərkəzinə 2021-ci ilin dekabr ayı ərzində 32 hüquqi və fiziki şəxs tərəfindən **182 dəfə müraciət** daxil olmuşdur. Ümumilikdə **497 ədəd sertifikat** (91 ədəd mənşə, 352 ədəd fitosanitar, 33 ədəd baytarlıq, 21 ədəd CİTES) verilib.

Cari ilin dekabr ayı ərzində “Bir Pəncərə” İxraca Dəstək Mərkəzi vasitəsilə **20,4 milyon ABŞ dolları** dəyərində ixrac həyata keçirilmişdir. Hüquqi və fiziki şəxslər tərəfindən qiymətli metal külçələr, nar, alma, qarışıq şirələr, nar çaxırı, pambıq mahlıcı, pambıq çiyidi, pambıq çiyidinin cecəsi, biyan kökü, pambıq ulyuku, tibbi zəli, arpa, torf, günəbaxan tumu, buğda, iri və xırdabuynuzlu heyvanların daxili orqanları, iribuynuzlu heyvan dərisinin sənayedə kəsilməsi nəticəsində yığılan faydasız tullantılar, iribuynuzlu heyvan mədəsi, pikellənmiş mal dərisi, dondurulmuş toyuq ayaqları, siqaret, qərənfil, akvakultur üsulu ilə yetişdirilmiş nərəcinsli balıqların kürüsü, xromlanmış iribuynuzlu mal dərisi, dondurma məhsulu, kərə yağı, polad boru, konteyner, istifadəyə yararsız işlənmiş katalizator, taxta paletin ixracı həyata keçirilib.

Yuxarıda adı çəkilən məhsullar arasında qiymətli metal külçələr-49.8%, pambıq mahlıcı-26,9%, polad boru-8,4%, süd məhsulları-2%, balıq kürüsü-1,8% ixracı üstünlük təşkil etmişdir. Sertifikat verilən məhsullar 24 ölkəyə (İsveçrə-49,8%, Türkiyə-27,9%, Rusiya-13,6%, Sinqapur-1,8%, İraq-1,4% digər ölkələrə (ABŞ, Polşa, Gürcüstan, İran, Azərbaycan (Duty Free), Fil Dişi Sahili, Latviya, Macarıstan, Almaniya, Honq-Konq, Ukrayna, Yaponiya, Oman, Özbəkistan, Qırğızıstan, Qazaxıstan, Tatarıstan, Yeni Zelandiya, Suriya))-5,5% ixrac edilmişdir. İxrac olunan məhsulların hava nəqliyyatı ilə-51,7%, avtomobil nəqliyyatı ilə-36,3%, dəmiryolu nəqliyyatı ilə- 10,4%, qarışıq nəqliyyat ilə ixracı isə-1,5% təşkil edir.

İxrac statistikasına nəzər yetirdikdə 2020-ci ilin dekabr ayı ilə müqayisədə ixracda 17,9% artım müşahidə olunmuşdur. Ötən illə müqayisədə isə cari il üzrə ixracda 28,6% artım qeydə alınıb. 2021-ci il üzrə "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **235,1 milyon ABŞ dolları** təşkil edib.

2017-ci ildən 2022-ci ilin yanvar ayına qədər "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri **708,4 milyon ABŞ dolları** təşkil edib.



# 2021-Cİ İLİN DEKABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ HƏYATA KEÇİRİLƏN İXRACIN STATİSTİKASI

(milyon ABŞ dolları ilə)






# 2021-Cİ İLİN DEKABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİNİN TƏQDİM ETDİYİ SERTİFİKATLARIN ÖLKƏLƏR ÜZRƏ BÖLGÜSÜ

2021 İXRAC İCMALI dekabr

| | |
|---|---|
| İsveçrə | 49,8% |
| Türkiyə | 27,9% |
| Rusiya | 13,6% |
| Sinqapur | 1,8% |
| İraq | 1,4% |
| Digər ölkələr | 5,5% |



# 2021-Cİ İLİN DEKABR AYINDA “BİR PƏNCƏRƏ” İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ ƏN ÇOX İXRAC OLUNAN MƏHSULLARIN BÖLGÜSÜ





# 2021-Cİ İLİN DEKABR AYINDA "BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ VASİTƏSİLƏ İXRAC EDİLƏN MƏHSULLARIN NƏQLİYYAT ÜZRƏ BÖLGÜSÜ

2021 İXRAC İCMALI dekabr



Hava nəqliyyatı

**51,7%**



**Avtomobil nəqliyyatı**

**36,3%**



Dəmiryolu nəqliyyatı

**10,4%**



Qarışıq nəqliyyat

**1,5%**



Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi

**İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİNİN**
**"BİR PƏNCƏRƏ" İXRACA DƏSTƏK MƏRKƏZİ**

AZ 1073, Bakı ş., Yasamal r., Q. Xəlilov küç., 47
47, Khalilov str., Yasamal district, Baku
Баку, Ясамальский район, ул. Г. Халилова, 47

/BİR PƏNCƏRƏ İxraca Dəstək Mərkəzi




Azərbaycan Respublikasının
Ədliyyə Nazirliyi tərəfindən
"İxrac İcmalı" jurnalı
11 yanvar 2018-ci il tarixində
N4160 nömrəsi ilə mətbu nəşrlərin
reyestrinə daxil edilmişdir.

Bakı, Yasamal rayonu,
Q. Xəlilov küçəsi 47, AZ 1073
Tel.: (+ 994) 12 521 25 35
info@ereforms.org

http://ereforms.gov.az

/iqtisadiislahat